# “Azərbaycan gəncliyi milli inkişafımızın gələcəyini təmin etməlidir”

## MİLLƏT VƏKİLİ: "TƏLƏBƏLƏRİN TƏQAÜDLƏRİNİN ARTIRILMASI AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA YENİ ÜFÜQLƏR AÇACAQ"

## NAZİR: "SON SƏRƏNCAMLAR TƏLƏBƏLƏRİN AKADEMİK GÖSTƏRİCİLƏRİNİN YÜKSƏLDİLMƏSİ ÜÇÜN ATILAN ADDIMDIR"



**PREZİDENT** İlham Əliyevin Azərbaycanın ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə təqaüdlərin verilməsi ilə bağlı sərəncamı Azərbaycan gəncliyinə qayğının növbəti təzahürü kimi qiymətləndirilməlidir. Bunu Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. H.Babaoğlu bildirib ki, bu, ilk növbədə tələbələrin və elmlə məşğul olmaq istəyən gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması kimi başa düşülür və kifayət qədər düzgün məntiqə əsaslanır: “Ancaq məsələnin mahiyyəti şübhəsiz ki, yalnız bununla məhdudlaşmır. Hazırda dünya yeni, 4-cü sənaye inqilabı ərəfəsindədir və xalqların intellektual müstəvidə mübarizəsi keyfiyyətcə yeni və daha amansız bir mərhələyə qədəm qoyur. Gələcəkdə dünyada söz sahibinə çevriləcək xalqlar da elə bu mübarizənin qalibi olan xalqlar olacaq. Ona görə də bu mühüm tarixi prosesdə geridə qalmamaq üçün Azərbaycan gəncliyi öz intellektual potensialını daima səfərbər etməli, milli inkişafımızın gələcəyini təmin etməlidir. Bu mənada təqaüdlərin artırılması ölkəmizdə elmin inkişafını motivasiya etməklə Azərbaycan elminin inkişafında yeni üfüqlər açacaq”.

Millət vəkili qeyd edib ki, bu prosesdə davamlı və fasiləsiz təhsil mühüm əhəmiyyət kəsb edir: “Bir müddət əvvəl magistrlərə hərbi xidmətdən möhlət hüququ verildi, daha sonra alimlərin mənzil-məişət problemlərinin həlli istiqamətində addımlar atıldı, təhsilin bütün pillələrində yeni metodologiyaya əsaslanan islahatlara start verildi və nəhayət, təqaüdlərin artırılması ilə bağlı mühüm qərar qəbul edildi. Göründüyü kimi, bu addımlar bir-birini tamamlayan və bu sahədə ardıcıllığı təmin edən kompleks xarakterli addımlardır və hədəf Azərbaycanda elmin inkişafını təmin etməkdir. Ümid edirik ki, qəbul edilən bu strateji qərarlar elm sahəsində inkişafı təmin etməklə intellektual əmək sahəsində məhsuldarlığın artmasına da gətirib çıxaracaq”.

Təhsil naziri Ceyhun Bayramov isə deyib ki, Prezident İlham Əliyevin təqaüdlərin artırılması barədə verdiyi son sərəncamlar tələbələrin sosial rifah halının yaxşılaşdırılması ilə yanaşı, təhsildə çox vacib olan istiqamətin - tələbələrin akademik göstəricilərinin yüksəldilməsi üçün atılan addımdır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə sərəncamı növbəti aydan etibarən daha 16 min tələbənin akademik göstəricilərini yaxşılaşdırması üçün stimul yaradır.

Qeyd edək ki, son sərəncamlarla ümumilikdə təhsilin müxtəlif pillələrində təhsil alan tələbələrin təqaüdləri minimum 14 faizdən 25 faizədək artırılıb. Bu sərəncamın təxminən 110 min tələbəyə şamil olunduğunu deyən nazir bildirib ki, martın 1-dən hazırda təqaüd alanlardan başqa, 16 min tələbə də təqaüd almaq imkanı əldə edəcək: “Bu isə təqaüd alan tələbələrin sayının 30 faiz artması deməkdir. Eyni zamanda, 2019-2020-ci tədris ilindən başlayaraq, 45 faizdən az olmayaraq, 2020-2021-ci tədris ilindən etibarən təqaüd alan tələbələrin sayının 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin ediləcək".

***Könül***